# ÖLÜMÜN GÖRÜŞÜNƏ GEDƏN QIZ

Elə dünən ömrünün
bahar çağıydı.
Elə dünən bu gözlər
dünyanın ən qaynar bulağıydı,
Qoluma girdin,
bir addım geri durdum,
utanıb adamlardan,
İndi daha sən yoxsan,
Yoxum, yox olanım, can!

Dünən saçların bulud,
qarışırdı küləkdə.
"Yalvarıram, ay qardaş,
bir az özünü qoru!" -
danışırdm ürəkdən
Ne sevgini gizləyirdin,
nə gözünün yaşını.
Ən şirin görüş yerindən
üstün tuturdun
tonqalların başını.
Mən özümü qorudum,
ya da Allah, təsadüf,
ya da ki xeyir-duan...
Məni qoruyanım, can!

Elə dünən səsində
əbədiyyət karvanının
zınqırov cingiltisi,
Elə dünən köksündə
dünyanın ən böyük sevgisi,
Gözün keçilməz dəniz,
Alnın ay kimi təmiz,
Yad nəfəsi duymamış,
Nəvazişə uymamış
zərif dağ çiçəyidin,
Bir ömrün yaraşığı,
əhdi, gələcəyiydin...
Səni ayrı sevgiydi
xoşbəxt edən, uçuran.
Öz eşqinə baş vurub
orda boğulanım, can!

Heç kimin açmadığı yaxanı güllələr açıb,
Qönçə döşlərinin arasında
açılıb qızıl güllər.
Ancaq üzün xoşbəxtdi...
Yarıyumulu gözün
öz əhdinə yetəntək
yenə duyğulu, gülər...
Açmısan öz sinəni yurdun azadlığına,
Süngünün öpüşünə,
güllənin dodağına!

Bu gündən bu yaraya
bütün dünya baxası,
Bu gündən qanlı yaxan
mələklərin yaxası...

Ana olmamış anasan - övladların
          yaralarından doğulacaq,

Süd əvəzinə qisas içirəcəksən onlara,
          südündə düşmən boğulacaq!..

Elə dünən ömrünün
          bahar çağıydı,
Elə dünən qayğımı çəkirdin -
          körpə ağlınla ağıl öyrədirdin mənə...
Elə dünən
          ilk sevginə doğru yol gedirdin,
Ömründə bircə dəfə vəfasız çıxdın -
Getdin... sevgilinin yox,
Ölümün görüşünə...

26 yanvar 1990

Sabir Rüstəmxanlı